Пропустивший поезд

"Qatardan qalan adam" rus mətbuatında

"Literaturnaya qazeta"nın 14-20 may 2025-ci il tarixli sayında Xalq yazıçısı Anarın "Qatardan qalan adam" adlı yeni hekayəsi dərc olunub.

Hekayədən məlum olur ki, azərbaycanlı iş adamı İshaq Salmanzadə türkiyəli şəriki Ədhəm bəylə Budapeşt dəmir yolu vağzalında vidalaşaraq bəlli bir tarixdə Nyu-Yorkda görüşməyi planlaşdırırlar. Vaqona həvəslə minmiş İshaq Salmanzadə tanımadığı adamlarla ünsiyyət qurmaqdan çəkindiyi üçün oturaq kupeni bütünlüklə alır ki, səfərini istədiyi kimi sakit başa vursun. Lakin hər şey onun düşündüyü kimi alınmır. Bir az öncəki tədbirlərin birində Kamilla adlı tatar qızı ilə tanışlıq və ona vurğunluq İshaq bəyi indi Budapeştdən o qızın yaşadığı Eger şəhərinə aparırdı. Dörd saatdan sonra o qız İshaqı Eger vağzalında qarşılayacaqdı.

Təəssüf ki, bu görüş baş tutmur. Nə İshaq bəy o vağzala çata bilir, nə də Kamilla onu qarşılaya bilir...

Yolda siqaret aclığı İshaq bəyin faciəsinə səbəb olur. Vaqon - restoranda bufetçidən siqaret istəsə də o, başını bulayıb siqaret vermir. Yalnız Azərbaycan və rus dillərini bilən İshaq isə çarəsiz qalıb stansiyaların birində vaqondan düşərək köşkə yaxınlaşır və siqaret alıb geri dönəndə qatarın tərpəndiyini, daha doğrusu, hərəkətə keçdiyini görür. Yüyürüb çatmaq istəyəndə ayağı büdrəyir və yıxılır. Qatar isə uzaqlaşır. Telefonu, pulu, sənədləri qatarın kupesindəki paltarının cibində qalır.

Sonra başına gələnlər İshaq bəyin bu səfərini ölümlə sonuclandırır. Onun sahibsiz cəsədi yandırılaraq bir ovuc külə dönüb qürbət səmasına üfürülür.

Pis vərdişlərə aludəliyin faciəsi kimi diqqəti çəkən hekayənin leytmotivi Xalq yazıçısının insanlara ibrətamiz mesajı timsalındadır.

Hekayəni rus dilinə Nicat Məmmədov tərcümə edib.